


# Güney Azərbaycanda Milli Hökumət dönəmində nələr yaşandı?

**Məhəmməd Rəhmanifər**

***Azərbaycan Milli Hökumətinin yaranmasının ildönümü münasibətilə yazdığımız əvvəlki yazıda bunun tarixi köklərindən və həmin dövrdə baş verən müxtəlif proseslərdən bəhs etmişdik. Bu yazıda hökumətin bir illik fəaliyyəti dövründə gördüyü işlərdən, tətbiq etdiyi proqram və yanaşmalardan bəhs edəcəyik.***

***Qeyd etdiyimiz kimi, 1945-ci il dekabrın 12-də Güney Azərbaycanın hər yerindən xalqın seçdiyi nümayəndələrin iştirakı ilə Azərbaycan Milli Məclisi açıldı. Həmin gün Məclis Seyid Cəfər Pişəvərini Baş nazir təyin edib ona hökumət kabinetini formalaşdırmaq səlahiyyəti verdi. Günortadan sonra Pişəvəri hökumətinin gələcək planlarını izah edərkən, təklif etdiyi nazirləri Məclisə təqdim etdi. Pişəvəri kabineti parlamentin etimad səsini qazana bildi və elə həmin axşamdan işə başladı.***

1945-ci il dekabrın 12-də Azərbaycan Milli Hökuməti rəsmən qurulub fəaliyyətə başlayanda Azərbaycanın əksər şəhər və kəndləri bu hökumətin nəzarətinə keçdi. Lakin Urmiya və hətta Təbriz kimi mühüm şəhərlərdə mərkəzi hökumətin ordusu hələ də müqavimət göstərir və təslim olmaq istəmirdi. Azərbaycan Milli Hökumətinin qurulmasından 2 gün sonra Təbrizdəki kazarmalar Güney Azərbaycan xalqının iradəsinin qarşısında diz çökdü və təslim olmaq məcburiyyətində qaldı, lakin Urmiyadakı kazarmalar hələ bir müddət də müqavimət göstərdi.

### Azərbaycan Milli Hökuməti tərəfindən həyata keçirilən proqramlar

Pişəvərinin Azərbaycan Milli Məclisinə təqdim etdiyi proqramları dərindən araşdıranda görünür ki, bunlar ətalətli siyasətçilərin sözləri deyil, həyata keçirilən, praktik proqramlardır. Aşağıda bir illik hökumətin Güney Azərbaycandakı mühüm fəaliyyətlərindən bəziləri qeyd olunacaq.

### Dilimiz və mədəniyyətimizlə bağlı həyata keçən proqramlar

Azərbaycan Milli Hökuməti Güney Azərbaycan türklərinin dil və mədəniyyət tələblərinə biganə qala bilməzdi. Rza şah 1925-ci ildə hakimiyyətə gəldiyi andan etibarən İranda türk dili qadağan edildi və bu dildə heç bir kitab, qəzet, nəşr, teatr və konsert verilə bilmədi. Bu qadağaların hamısı Azərbaycan Milli Hökuməti yaranandan bəri aradan qaldırıldı. Yeni yaradılmış Azərbaycan Milli Hökuməti əvvəldən qarşılaşdığı bütün problemlərə baxmayaraq, təhsil və mədəniyyət məsələlərinə xüsusi diqqət yetirirdi. Dağılmış məktəblərin təmiri, yeni məktəblərin tikilməsi, Azərbaycan Universitetinin açılması, Təbrizdə radio stansiyasının açılması, konsert və teatrların həyata keçməsi, kimsəsiz uşaqlar üçün özəl məktəblərin açılması, təhsilin ana dilində aparılması və ana dilində dərsliklərin çapı bu hökumətin Azərbaycan mədəniyyəti uğrunda həyata keçirdiyi ən mühüm addımlardır.



> ***Milli Hökumətin qurulması Güney Azərbaycanda türkcə mətbuatın və nəşrlərin yaranmasına və sürətlə inkişafına imkan verdi. Sayı 50-dən çox olan bu qəzet və jurnalların başlıcaları Azərbaycan Milli Hökumətinin rəsmi nəşri olan "Azərbaycan" qəzeti, "Azad millət", "Yeni Şərq", "Azərbaycan ulduzları", "Şəfa", "Demokrat", "Günəş", "Kitap Səhifəsi", "Şairlər məclisi" idi. "Azərbaycan" qəzetində hökumətin fəaliyyətləri və Azərbaycan liderlərinin fikirləri ilə bağlı xəbərlərlə yanaşı, İran hökuməti rəhbərlərinin və ya onların havadarlarının iddialarına cavab olaraq yazılan mətnlər yayımlanırdı...***

1946-cı il yanvarın 6-sı Güney Azərbaycan türkləri üçün unudulmaz bir gün oldu. Həmin gün Azərbaycan Milli Məclisi müxtəlif mövzularda, xüsusilə türk dili, Azərbaycan Universiteti, yetim uşaqların vəziyyəti ilə bağlı bir sıra qərarlar qəbul etdi. Alınan qərara görə, artıq Azərbaycan türkcəsi rəsmi dövləti dili statusuna malik oldu və o gündən etibarən bütün rəsmi sənədlərin Azərbaycan türkcəsində yazılması icbari hal aldı. Bu qərarla, Azərbaycan Milli Hökuməti dövründə Güney Azərbaycanda türk dili dövlət və təhsilin rəsmi dili oldu. Bundan əlavə, hökumət Azərbaycan türkcəsində yazan şair və yazıçılara dəstək verirdi. O dövrün bir çox şairləri müharibə, müqavimət, kimlik mübarizəsi kimi mövzularda yazırdılar. Bundan başqa, 1946-cı ilin yanvarında Quzey Azərbaycandan bir qrup şair və yazıçının Güney Azərbaycana səfəri və Güney Azərbaycanda ədəbi məclislərdə iştirakı, bəzi tədqiqatçıların fikrincə, Güney Azərbaycanda mədəni həyatın ən parlaq hadisələrindən biri hesab edilməlidir.

Milli Hökumətin qurulması Güney Azərbaycanda türkcə mətbuatın və nəşrlərin yaranmasına və sürətlə inkişafına imkan verdi. Sayı 50-dən çox olan bu qəzet və jurnalların başlıcaları Azərbaycan Milli Hökumətinin rəsmi nəşri olan "Azərbaycan" qəzeti, "Azad millət", "Yeni Şərq", "Azərbaycan ulduzları", "Şəfa", "Demokrat", "Günəş", "Kitap Səhifəsi", "Şairlər məclisi" idi. "Azərbaycan" qəzetində hökumətin fəaliyyətləri və Azərbaycan liderlərinin fikirləri ilə bağlı xəbərlərlə yanaşı, İran hökuməti rəhbərlərinin və ya onların havadarlarının iddialarına cavab olaraq yazılan mətnlər yayımlanırdı.

Pişəvərinin səyləri nəticəsində qısa zaman ərzində, 1946-cı il aprelin 7-də "Təbriz radiosu" yayıma başladı.

İslam dünyasının ən qədim və inkişaf etmiş teatrlarından sayılan Güney Azərbaycan Teatrı Rza şah dövründə bağlanmışdı. Bir çox mədəniyyət sahələri kimi, Güney Azərbaycan Teatrı da Azərbaycan Milli Hökuməti dövründə yenidən dirçəldi. İlk dəfə olaraq, 1945-ci ildə Güney Azərbaycan teatrı dövlət tərəfindən dəstək gördü və qısa zaman ərzində Azərbaycanın bir çox şəhərlərində teatr salonları açılmağa başladı. 1946-cı il martın 28-də Təbrizdə keçirilən coşqulu mərasimlə Azərbaycan Dövlət Teatrının açılışı oldu. 1946-cı ildə Azərbaycan Milli Hökumətinin və Azərbaycan Milli Məclisinin qərarı ilə 85 artistdən ibarət Azərbaycan Filarmoniyası yaradıldı. "Aşıqlar qrupu" filarmoniyanın ən populyar kollektivi idi. Azərbaycan Filarmoniyasının ən böyük uğurlarından biri də qadınları sənət aləminə daxil etməsi olub. Həmin dövrdə "Qızlar rəqs qrupu" yaradılıb, qızlar və oğlanlar birlikdə müxtəlif Azərbaycan folklor rəqslərini ifa edirdilər. Rza xanın hakimiyyəti dövründə Azərbaycan türklərinə milli rəqs və türk musiqisi ifa etməyin qadağan olunmasına baxmayaraq, qısa müddətdə çox peşəkar artistlər yetişdirildi.

### Torpaq islahatı

1945-ci ildə əkinçilərlə torpaq sahibləri arasında uzun müddətdir davam edən gərginlik pik həddə çatmışdı. İranda Tudə kommunist partiyası olaraq bu münaqişədə açıq şəkildə əkinçilərin tərəfini tutur və bəzən onları mülkədarlara qarşı təhrik edirdi. Azərbaycan Demokrat Firqəsinin yoxsul əkinçi və kəndlilərin qayğısına qalmasına baxmayaraq, sinfi deyil, ümummilli partiya olduğu üçün əkinçilərlə mülkədarlar arasında münaqişələrə son qoymaq istəyirdi.

***Əkinçilərlə torpaq sahibləri arasında yaranmış gərginliyin sülh yolu ilə həllinin zəruriliyi həm Azərbaycan Demokrat Firqəsinin təsis bəyannaməsində, həm də Azərbaycan Milli Hökumətinin proqramında öz əksini tapmışdı. Əkinçiləri torpaq sahibi etmək Azərbaycan Demokrat Firqəsinin də arzusu idi...***

(ardı gələn sayımızda)